**UOT 781**

***Şəbnəm Məmmədova***
***Azərbaycan Milli Konservatoriyasının dissertantı***
***AZ 1073, Bakı, Ə.Ələkbərov 7***
***E-mail:*** national@conservatory.az

# "AYGÜN" OPERASININ KOMPOZİSİYA XÜSUSİYYƏTLƏRİ

**Xülasə:** Məqalədə xalq şairi Səməd Vurğunun "Aygün" poemasına tanınmış Azərbaycan bəstəkarı Zakir Bağırovun bəstələdiyi eyni adlı operadan bəhs edilir. Həmçinin burada bəstəkarın ayrı-ayrı obrazlar üçün yazdığı leytmotivlər təhlil olunmuşdur.

**Açar sözlər:** Zakir Bağırov**,** Aygün, kompozisiya, leytmotiv, intonasiya.

Xalq şairi Səməd Vurğunun yaradıcılıq incilərindən olan "Aygün" poemasına 1972-ci ildə bəstəkar Zakir Bağırov opera bəstələmişdir. Operanın libretto müəllif də bəstəkar özü olmuşdur.

Zakir Bağırovun "Aygün" operası mahnı operasıdır. Kiçik bir haşiyəyə çıxaraq qeyd edək ki, ümumiyyətlə mahnı operası janrının təməli 1960-cı illərin ortalarında sovet bəstəkarı İ.İ Dzerjinskiyin M.A.Şoloxovun romanına yazdığı "Sakit Don" operası ilə qoyulmuşdur. Ondan sonra bu ənənəni O.S.Çişko, V.V.Jelobinskiy, L.A.Xodja-Eynatov və T.N.Xrennikov kimi bəstəkarlar öz yaradıcılıqlarında davam etdirmişlər. Zakir Bağırovun "Aygün" operası da həmçinin qeyd etdiyimiz janrın milli musiqimizdə təcəssümü kimi vurğulanır.

Bəstəkar Zakir Bağırov "Aygün" operasında leytmotiv sistemindən geniş istifadə etmişdir. Demək olar ki, obrazların hər dəfə çıxışlarından öncə onların leytmotivləri səsləndirilir. Obrazlarla yanaşı operada Məhəbbət və Muğan leytmotivləri də vardır (Qeyd edək ki, bu adları leytmotivlərə şərti olaraq vermişik).

Bəstəkar Zakir Bağırov baş qəhrəman Aygün obrazı üçün həzin melodik xətti ilə seçilən Bayatı-Şiraz muğamının intonasiyasılarını özündə əks etdirən leytmotiv (nümunə1) qurmuşdur. Leytmotivdə Aygünün murada çatmayan arzularından doğan nigarançılıq və həsrət intonasiyaları duyulur. Operanın süjetindən Aygünün həyat tərzinə nəzər saldıqda onun Əmirxan ilə Muğana getdiyi vaxtlarda yarımçıq qalmış təhsilindən dolayı keçirdiyi nigarançılıq hisslərini, Əmirxandan ayrılıb öz sənətində yüksəldiyi zamanlarda isə məhəbbəti üçün qəlbində hər an yaşatdığı həsrətini görürük.

**Nümunə 1**



Aygün obrazının leytmotivi operada ilk dəfə I pərdənin 1-ci şəklində "Buraxılış gecəsi" səhnəsində Əmirxanın təyinatı haqqında olan duetdə səslənir.

Əsərin ikinci qəhrəmanı olan Əmirxan obrazı üçün bəstəkar Zakir Bağırov operada iki leytmotiv yazmışdır. Çünki bu obrazın xarakterində poema və opera boyunca dəyişikliklər baş verir. Dəyişikliklər isə leytmotivlərin xarakterlərində öz əksini tapmışdır. Əmirxanın leytmotivləri xarakter və ritmik quruluşlarına görə bir-birilərindən fərqlənirlər.

Birinci leytmotivin (nümunə2) müşayiətində melodik xətt pillələrlə aşağıya doğru hərəkət edir. Leytmotivin melodiyası isə dalğavari xəttlə yuxarı doğru inkişaf edir. Bu ziddiyyətli istiqamətlər leytmotivin intonasiyasına sərt ifadə verir. Leytmotivin sadaladığımız bu cəhətləri ilə Zakir Bağırov Əmirxanın qısqanc və coşğun gəncliyini tərənnüm etməyə çalışmışdır.

Əmirxanın I leytmotivinə şərti olaraq "Qısqanclıq leytmotivi" adı verə bilərik. Çünki operanın I və II pərdəsi ilə yanaşı III pərdəsində də leytmotiv Əmirxanın nəzərində Aygün ilə Elyarın yaxınlaşdığı səhnələrdə səslənir. Təsadüfi deyil ki, Əmirxanın yalnız I leytmotivi operanın I və II pərdələrində səslənir. Ona görə ki, III pərdədə hadisələrin üstündən artıq beş il vaxt ötmüşdür və Əmirxanın hərəkətlərini əvvəlki tək çılğın duyğuları idarə etmirdi.

**Nümunə 2**



Operada Əmirxanın I leytmotivi ilk dəfə I pərdənin 1-ci şəklində "Ömrün ötüşən günləri" xoru bitdikdən sonra Aygün ilə salona qayıtdıqları səhnədə eşidilir.

Transformasiya keçmiş Əmirxan obrazının oxunaqlı II leytmotivində (nümunə3) I leytmotivindəki ziddiyyətli melodik xətt və sərt ifadələr yer almamaqdadır. Leytmotivin Seygah muğamından qidalanan intonasiyası da Əmirxan obrazının yumşalan xarakteri ilə əlaqədardı. Səkkizlik, çərək, səkkizlik və 4 onaltılıq notların qruplaşması üzərində qurulmuş mövzu hər zaman aşağıya doğru yönələrək dəfələrlə sekvensiya olunur və Əmirxanın peşmançılığını, məyusluğunu və tənhalığını ifadə edir.

**Nümunə 3**



Bəstəkar Zakir Bağırov operada Elyar obrazı üçün də leytmotiv (nümunə4) yazmışdır. Elyar obrazının leytmotivi intonasiya baxımından məhəbbət leytmotivinə yaxındır. Elə Elyar da qeyd etdiyimiz kimi operada məhəbbət üçbucağının bir qolunu təşkil edir. Elyarın leytmotivi sekvensiyalı mövzunun statik triollu tersiya müşayiəti üzərində qurulmuşdur. Bütün bunlarla bəstəkar həssas təbiətli naturaya sahib Elyarın baş qəhrəmana vurğunluğunu ifadə etməyə çalışmışdır. Leytmotivin *Passionato* tempi isə onun ümumi əhvalını bütünlükdə tamamlayır.

**Nümunə 4**





“Aygün” operasının qeyd etdiyimiz kimi Muğan leytmotivi (nümunə5) də vardır ki, o, *Allegretto* tempində, dinamik xarakterdə, sadə melodiya üzərində qurulmuşdur. Üç xanədən ibarət olan mövzu dəfələrlə sekvensiya olunur. Bu leytmotiv operada torpağı- xalqı tərənnüm edir, yəni simvolik aspekt daşıyır.

**Nümunə 5**



Operanın sonuncu leytmotivi isə Məhəbbət leytmotividir. Bu leytmotiv (nümunə 6) operanın əsas ideyasını özündə cəmləyir: iki qəhrəmanın məhəbbəti və bütün çətinliklərə qarşı mübarizəsi. Onu da qeyd edək ki, məhəbbət leytmotivi operanın proloqunda səslənən yeganə leytmotivdir. Leytmotiv qeyd etidiyimiz kimi operanın proloq nömrəsində, eyni zamanda operanın 6-cı və 9-cu şəkillərində səslənir. Leytmotivin *Meno mosso* tempində, üçsəsli və septakkordların arpeciovari ifası üzərində qurulmuş müşayiətində və enişli-yoxuşlu melodiyasında mülayimlik vardır ki, bununla da bəstəkar musiqisində həyatın xoş duyğularını əks etdirməyə çalışmışdır.

**Nümunə 6**



Beləliklə təhlilimizin yekunu kimi diqqətə çatdıraq ki, xalq şairi Səməd Vurğunun “Aygün” poeması eyniadlı filmlə yanaşı “Aygün” operasının da yaranmasına zəmin yaratmışdır. Haqqında danışdığımız bu opera süjetində qadın obrazlarının ana xətti təşkil etdiyi əsərlərin davamı kimi qəbul edilə bilər.

Zakir Bağırovun “Aygün” operası 26 yanvar 1973-cü ildə M.F.Axundov adına Azərbaycan Dövlət Opera və Balet teatrında tamaşaya qoyulmuşdur. Operanın dirijoru xalq artisti Rauf Abdullayev, rejissoru Əli Usubov və Fikrət Sultanov, rəssamı Əyyub Fətəliyev, xormeysteri B.Vəkilova və M.Sadıxov, baletmeysteri isə N.Nəzirova olmuşlar [3]. Aktyorlardan isə Aygün rolunda- Xədicə və Dilarə Babayevalar, Əmirxan rolunda- əməkdar artist Faiq Mustafayev və Əli Haqverdiyev, Elyar rolunda- Adil Məlikov və Vaqif Kərimov, Nemət rolunda- Firudin Mehdiyev, Məti rolunda- K.Məmmədov, İ.Məmmədov, Rəfi rolunda- Q.Əliyev, V.Sultanov, Şəfiqə rolunda- S.Əzimi, İsmət dayı rolunda- A.Əfqanlı, V.Tahirov rol almışlar[1].

## Ədəbiyyat:


1. Mustafayev R. “Aygün” səhnəmizə xoş gəlib. Ədəbiyyat və incəsənət. 1973.10 mart
2.Səməd Vurğun. Seçilmiş əsərləri. Beş cilddə, III cild. “Şərq-Qərb”.Bakı-2005.s.333-422
3. Эфендиева И. Баку. 1973. 28январ

**Шабнам Маммедова**
**Композиционные особенности оперы "Айгюн"**

**Резюме**

В этой статье автор повествует об одноименной опере известного азербайджанского композитора Закира Багирова, написанной к поэме "Айгюн" - народного поэта Самеда Вургуна. Также были проанализированы лейтмотивы, сочиненные композитором к отдельным персонажам этого музыкального произведения.
**Ключевые слова**: Закир Багиров, Айгюн, композиция, лейтмотив, интонация

**Shabnam Mammadova**
**The composition features of the “Aygun”opera**

**Summary**

In this article the author narrates about the opera of the famous Azerbaijani composer Zakir Bagirov written for the poem "Aygun" by the national poet Samed Vurgun. Also, the leitmotifs, composed by the composer for the individual characters of this piece of music, were analyzed.
**Key words:** Zakir Bagirov, Aygun, composition, leytmotiv, intonation.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 09.10.2017 Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 17.10.2017Məqalənin çapa qəbul olunma tarixi: 16.11.2017**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent ElladaHüseynov**
**ADMİU-nun Elmi Şurasının 21 dekabr 2017-ci il, 04 saylı qərarı ilə çap olunur**